# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

## ƏMR

№ 15/t

Bakı şəhəri 27.02.2017

**Dövlət Statistika Komitəsinin inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərinin siyahısının təsdiq edilməsi barədə**

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsinin icrasını təmin etmək məqsədi ilə **əmr edirəm:**

1. "Dövlət Statistika Komitəsinin inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərinin siyahısı" təsdiq edilsin (əlavə olunur).
2. Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsi (Q.Əliyev) bu əmrin birinci hissəsi ilə təsdiq edilmiş siyahının Dövlət Statistika Komitəsinin bütün struktur bölmələrinə çatdırılmasını və rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.
3. Dövlət Statistika Komitəsinin 2007-ci il 13 dekabr tarixli 221/t nömrəli əmri ləğv edilsin.

**Sədr** **Tahir Budaqov**